**Azərbaycan Respublikasının vergilər nazirinin "21" may 2015-ci il tarixli 1517040100646900 nömrəli əmri ilə təsdiq edilmişdir.**

# VƏZİFƏ TƏLİMATI № 2-15

| | |
|---|---|
| **Strukturun adı:** | Vergilər Nazirliyinin Tədris Mərkəzi |
| **Kafedranın adı:** | müvafiq sahə üzrə kafedra |
| **Vəzifənin adı:** | dosent |
| **Vəzifə maaşı:** | 540 AZN |
| **İş yerinin yerləşdiyi yer:** | Şamaxı rayonu |
| **Bilavasitə tabe olduğu şəxs:** | kafedra müdiri |
| **Vəzifə funksiyaları:** | 1. Kafedranın illik iş planlarının tərtib edilməsində iştirak etmək;<br>2. Təlim materiallarının (yazılı və elektron) hazırlanmasında və mütəmadi olaraq təkmilləşdirilməsində iştirak etmək;<br>3. Dinləyicilərinin biliklərinin qiymətləndirilməsi üçün kafedranın profilinə uyğun olaraq zəruri materialların (testlər, praktiki məsələlər, suallar və s.) hazırlanmasında iştirak etmək;<br>4. Kafedrada ona həvalə edilmiş tədris yükünü yerinə yetirmək;<br>5. Tədris prosesində müasir təlim metodları və alətlərindən istifadə etmək;<br>6. Kafedranın profili üzrə elmi-tədqiqat işlərinin yerinə yetirilməsində iştirak etmək;<br>7. Vəzifə fəaliyyəti və fərdi iş planının icrası ilə əlaqədar hesabatlar təqdim etmək;<br>8. Kafedra iclaslarında iştirak etmək;<br>9. Vəzifə səlahiyyətləri çərçivəsində kafedra müdiri tərəfindən verilən tapşırıqları yerinə yetirmək;<br>10. Tədris Mərkəzinin kafedrası haqqında Əsasnaməyə uyğun olaraq digər vəzifələri yerinə yetirmək. |
| **Təhsil və ixtisas tələbləri:** | hüquqşünaslıq, iqtisadiyyat və idarəetmə ixtisas istiqamətləri üzrə ali təhsil |
| **Staja dair tələb:** | vergi orqanlarında 1 il xidmət və ya kafedranın profilinə uyğun olaraq ali və ya əlavə təhsil sahəsində 5 il pedaqoji staj. |
| **Kompüter biliklərinə dair tələblər:** | (MS OFFICE, INTERNET) – yüksək səviyyədə istifadə |
| **Xarici dil bilikləri:** | bir xarici dil - orta səviyyədə |
| **Təşkilatçılıq bacarığı:** | orta səviyyədə |
| **Problemi həll etmək bacarığı:** | orta səviyyədə |
| **Qərarvermə qabiliyyəti:** | orta səviyyədə |
| **Ünsiyyət qabiliyyəti:** | orta səviyyədə |

Tərtib etdi: **İnsan resursları idarəsi və vəzifə təlimatlarının hazırlanması üzrə işçi qrup**

**Qeyd:** bu vəzifə Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2005-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"yə müvafiq olaraq müsabiqə və ya vergi orqanlarında xidmət edən əməkdaşlar üçün Vergilər Nazirliyinin əmrləri əsasında tutulur.